# GORANBOY: DAVAMLI İNKİŞAF TƏMİN OLUNMUŞDUR

*Goranboy Rayon İcra Hakimiyyəti nümayəndələrinin, hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət və xidmət sahələrinin rəhbərlərinin iştirakı ilə 2016-cı ilin birinci rübünün yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclas keçirilmişdir. İlk öncə Ermənistanın silahlı təxribatının qarşısını alaraq, qəhrəmancasına şəhid olmuş Azərbaycan hərbçilərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.* ***Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev*** *iştirakçıları salamlayaraq bildirdi ki, aprelin 9-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir. Dövlətimizin başçısı giriş nitqində qeyd etmişdir ki, son günlər Ermənistan Azərbaycana qarşı növbəti silahlı təxribat törətmiş və Milli Ordumuz tərəfindən düşmənə layiqli cavab verilərək Azərbaycan öz torpaqlarını qoruya, öz hərbi mövqelərini daha da möhkəmləndirə bilmişdir.*



Cənab Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin əsas vəzifə olmasını diqqətə çatdıraraq vurğulamışdır ki, Azərbaycan həm siyasi, həm iqtisadi və bütün başqa sahələrdə gücləndikcə bu münaqişənin həlli daha da yaxın olacaqdır.

Hesabat dövründə Goranboy rayonunda da tikinti-quruculuq və abadlıq işləri davam etdirilmişdir. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə dövlət Xidmətinin rayon şöbəsinin inzibati binasının tikintisi davam etdirilir. Yaxın günlərdə rayon Kənd Təsərrüfatı İdarəsinin inzibati-laboratoriya binasının tikintisi başa çatacaqdır. Şəhər 3 saylı uşaq bağçasında bərpa-gücləndirmə və əsaslı təmir üzrə son tamamlama işləri aparılır.

Goranboy-Goran avtomobil yolunun 4 km ikitərəfli yolun tikintisi başa çatmış, yola asfalt-beton örtük salınmış, işıqlandırma sistemi istismara verilmişdir.

Şəhər ərazisində Goranboy-Goran və Goranboy-Qızılhacılı avtomobil yollarının kənarlarında 9800 ədəd ağac əkilmişdir. C.Cabbarlı küçəsində beşmərtəbəli yaşayış binasının həyətinə asfalt örtük salınması üçün hazırlıq işləri başa çatmış, yaxın günlərdə asfalt örtük salınacaqdır. Nazirlər Kabinetinə müraciətimiz əsasında qəzalı vəziyyətdə olan və Goranboy şəhəri S.Civəzadə küçəsi 17 və S.Vurğun küçəsi 6 ünvanda yerləşən yaşayış binalarına baxış keçirilmiş, həmin binaların yerində yenilərinin tikilməsi məqsədəmüvafiq hesab edilmişdir. Bu məqsədlə lazımi sənədlər hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilmişdir. Heydər Əliyev prospektində və Civəzadə küçəsində (Şəhidlər Xatirə Kompleksindən N.Nərimanov küçəsinədək) hasarın tikintisi və aqlay daşı ilə üzlənməsi, Vidadi küçəsi 55 və 57 ünvanda yerləşən 2 mərtəbəli yaşayış binalarının dam örtüyünün təmiri üçün hazırlıq işləri aparılır.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin tapşırığına əsasən respublikamızda 31 min daimi iş yeri açılmışdır. Bunun da 470-i rayonumuzun payına düşür. Bu iş yerləri əsasən dövlət sektorunda, o cümlədən 70-i kommunal, 139-u çoxmənzilli binaların təmiri sahəsindədir. 261 iş yeri isə digər sahələrdədir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iqtisadi durumun yaxşılaşdırılması, dotasiyalardan asılılığın minimuma endirilməsi, məşğulluq səviyyəsinin artırılması və əhalinin maddi rifahının yüksəldilməsi ilə bağlı əməli tədbirlər görülməsi barədə tapşırıqlar vermişdir. Bu tapşırıqların icrasını təmin etmək məqsədi ilə rayon icra hakimiyyəti başçısının müvafiq sərəncamı ilə qərargah yaradılmışdır. Artıq nəzərdə tutulmuş 500 hektar sahənin 400 hektarında meyvə bağı salınmış, 2000 hektar sahədə pambıq səpini üçün işlərə başlanılmışdır. Bu məqsədlə 2003 hektar sahədə şum aparılmış, 1450 hektar sahə arat olunmuş, 250 ha sahədə səpin aparılmışdır. Pambıq səpininin optimal müddətdə başa çatdırılması üçün bütün zəruri tədbirlər görülür. 12 hektar ərazidə tütün əkini üçün şum aparılmışdır.

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən işsizliyin azaldılması və maddi imkanları aşağı olan aztəminatlı ailələrin mənzil probleminin həlli üçün sosial mənzillərin tikintisi layihəsinin icrasına başlanacaqdır. Artıq rayonda da 108 ailəni mənzillə təmin etmək üçün 2 ədəd yaşayış binasının tikintisi üçün torpaq sahəsi ayrılmışdır.

Əhalinin fasiləsiz elektrik enerjisi ilə təminatı üçün elektrik təsərrüfatının yenidən qurulmasına başlanılmışdır. Hazıradək Goranboy şəhərində və yaşayış məntəqələrində bütün standartlara cavab verən 17 ədəd yeni transformator məntəqələri quraşdırılaraq abonentlərin istifadəsinə verilmiş, 391 ədəd 0,4 kv-luq metal dayaq basdırılmış, 7800 metr SİB kabel çəkilmişdir.

Rayonun yaşayış məntəqələrinin qazlaşdırılması uğurla davam etdirilir. 2009-cu ildə rayon üzrə qazlaşma 40 faiz təşkil edirdisə, 2015-ci ildə bu rəqəm 88 faizə çatmışdır. Keçən il 6 kəndə, 2016-cı ilin birinci rübündə isə bir kəndə təbii qaz verilmiş, hazırda isə 12 kəndin qazlaşdırılması işləri aparılır. Bu işlər başa çatdırıldıqdan sonra rayon üzrə qazlaşma 94 faiz təşkil edəcəkdir.

Nazirlər Kabinetinin iclasındakı çıxışında möhtərəm Prezidentimiz cənab İlham Əliyev qeyd etmişdir ki, rayonlarda kifayət qədər istifadəsiz torpaqlar vardır. Bu torpaqlardan istifadə olunmalı, ərzaq bolluğu yaradılmalıdır. Eyni zamanda hər bir regionun iqlim şəraitinə uyğun kənd təsərrüfatı məhsulları yetişdirilməlidir.

Hazırda təsərrüfat işlərinin, o cümlədən suvarmanın qızğın çağıdır. Nəzərə alsaq ki, bu il əvvəlki illə müqayisədə əkin sahələri çoxalıb, eyni zamanda 500 hektar sahədə bağ salınıb, 2 min hektar sahə isə pambıq əkini üçün hazırlanıb. Göründüyü kimi, suvarma suyuna tələbat artacaqdır.

Bu gün ölkə Prezidenti qarşımıza çox ciddi tələblər qoymuşdur. Ona görə də idarə, müəssisə rəhbərləri, yerli icra və bələdiyyə orqanları gərgin işləməlidir. Elə etməliyik ki, bütün tapşırıqlar vaxtında icra edilsin, il uğurla başa çatdırılsın. Çıxışının sonunda rayon rəhbəri bir daha tam əminliklə bildirdi ki, qədirbilən goranboylular Azərbaycanın tərəqqisi uğrunda həmişə bütün gücünü sərf etmiş, bundan sonra da ölkə Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşərək, qarşıya qoyulan bütün vəzifələri layiqincə yerinə yetirəcəkdir.

Tədbirin sonunda qərar layihəsi oxundu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul olundu.

**Zabit XƏLİLOV,**
**"Respublika".**